# *Tayeb MANSURİ:* "Mədəniyyətlərarası dialoq ziddiyyətlərin aradan qaldırılması üçün çox gözəl vasitədir"




**"Dünyada baş verən hadisələri nəzərə alsaq, bu forum çox yerinə düşən tədbirdir. Hazırda dünyada cəmiyyətlər arasında, eləcə də cəmiyyətlər daxilində bir çox məsələlər - gərginliklər, bölünmələr mövcuddur. Düşünürəm ki, bu platforma bir araya gələrək hamı üçün sülh və təhlükəsizliyin əldə olunmasının mümkün yolları barədə fikir yürütmək və müzakirələr aparmaq üçün çox gözəl fürsət yaradır".**

Bu fikirləri AZƏRTAC-a VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı, avstraliyalı Fethi Ben Tayeb Mansuri deyib.

O diqqətə çatdırıb ki, mədəniyyətlərarası dialoq bu ziddiyyətlərin aradan qaldırılması üçün çox gözəl vasitədir. Həmçinin bu dialoqun uğurlu olması üçün bir çox şərtlər nəzərə alınmalıdır.

---

Azərbaycan. - 2024.- 4 may, № 91.- S.8.